

Almaniya kansleri Angela Merkel doqquzuncu dəfə Xristian-Demokratik İttifaqı (XDİ) partiyasının sədri seçilib.

AzNews.az The Huffington Post nəşrinə istinadən xəbər verir ki, Essen şəhərində partiyası tərəfində şərəfinə təşkil olunmuş gecədə Merkel 77 dəqiqəlik nitq söyləyib. Nitqinin sonunda xanım siyasətçini partiya tərəfdaşları 11 dəqiqə dayanmadan alqışlayıb.

Bu 11 dəqiqə ərzində səhnədə qalan Merkel baş əyib, minətdarlıq əlaməti olaraq əlini qaldırıb, səhnədə gəzişib, hətta bir neçə dəfə stula da əyləşib. Amma bütün bu jestlər alqışları dayandıra bilməyib.